**KAMRAN İMANOV**

# Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə

**Bakı – 2016**

**Kamran İmanov**

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri

**Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə. Bakı, 2016**

Bu kitabça Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanovun 30 may 2013-cü il tarixində keçirilən Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" mövzusunda beynəlxalq konfransda etdiyi "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi 2016**

# Mündəricat


1. Ümummilli lider Heydər Əliyev Azərbaycanın müəllif-hüququ sisteminin Müəllifi və Yaradıcısıdır və onun irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir ................................ 5
2. Prezident İlham Əliyevin rəhbərliyi altında müəllif-hüquq sisteminin müasirləşməsi və dünyanın qabaqcıl sistemləri sırasına daxil olması .......................................................... 7
3. Müəllliflik hüququ və digər oxşar ƏM hüquqlarının Milli qanunvericilik bazası ......... 9
4. Beynəlxalq müqavilələr .................................. 9
5. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi .......................................................... 10
6. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası və ƏM ............. 25

# 1. Ümummilli lider Heydər Əliyev Azərbaycanın müəllif-hüququ sisteminin Müəllifi və Yaradıcısıdır və onun irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir



*"Biz azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, milli mənəvi dəyərlərimizdir. Milli mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımız, folklorumuz bir sözlə xalqımıza mənsub olan adət-ənənələrimizdir".*

**Heydər Əliyev**

- **1993-cü il** – ilk ixtisaslaşmış, mərkəzi icra hakimiyyəti orqanı statusunda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin (MHA) yaranması;
- **1996-cı il** – müstəqil Azərbaycanın ilk əqli mülkiyyət üzrə qanunu: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanun;
- **MHA fəaliyyətinin 4 mərhələsi:**

- **1993-1996-cı illər**: müəllif-hüquq sisteminin yaradılması və təşəkkülü dövrü (Konstitusiyanın 30-cü maddəsi, Yeni Qanun, ÜƏMT-ə daxil olması, YUNESKO-nun «Müəlliflik hüququ haqqında Ümumdünya Konvensiyası», «MDB-nin Müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlığı» Sazişi, Kollektiv əsasında əmlak hüquqlarının idarə edilməsi sistemi və s.);

- **1997-2002-ci illər**: müəllif-hüquq sisteminin möhkəmləndirilməsi və inkişafı dövrü (Yeni Qanunun tətbiqinə aid normativ-hüquqi aktlar, bazarın monitorinqi, «İnteqral sxem topologiyalarının qorunması haqqında» Qanunu, ÜƏMT işində iştirak, Bern Konvensiyası, Cenevrə fonoqram Konvensiyası, diplomatik Konfransların və Konvensiyaların rəhbərliyinə seçilmə, Aİ «TACİS – intellektual mülkiyyət Proqramı» və s.).

## 2. Prezident İlham Əliyevin rəhbərliyi altında müəllif-hüquq sisteminin müasirləşməsi və dünyanın qabaqcıl sistemləri sırasına daxil olması



*“Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir...”.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

- **2003-2008-ci illər**: milli müəllif-hüquq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması dövrü

(«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında», «Məlumat toplularının hüquqi qorunması haqqında» Qanunlar, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, «Müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində dövlət siyasətinin təmin edilməsi», «Piratçılığa qarşı mübarizə: müdafiə üsulları», Sahə proqramları, kollektiv idarəetmə, rəqəmli mühitdə hüquqlar, elektron kommersiya və s. metodiki göstərişlər və təlimatlar, ÜƏMT-nin İnternet-müqavilələri, ÜTT-nin TRİPS müqaviləsi, ABŞ 301-ci Proqramının «qara siyahısından» çıxarılması, Azərbaycan-ÜƏMT əməkdaşlıq Proqramı, YUNESKO-nun «Qeyri-maddi mədəni irsin qorunması haqqında» Konvensiyası, Agentliyin yeni Əsasnaməsi);

- **2009-cu ildən indiyədək**: müasir rəqəmli çağırışlara və biliklərə əsaslanan iqtisadiyyata cavab verən rəqəmsal müəllif-hüquq sisteminin formalaşdırılması dövrü

(Kadrların peşəkarlığını artırmaq və bir sıra islahatlar, ƏM mədəniyyətinin formalaşdırılması, İT-İP əlaqəsinin gücləndirilməsi və piratçılığa qarşı yeni üsulların istifadə edilməsi, ÜDM-də kreativ sənayenin payının araşdırılması, «ƏMH təminatı və piratçılığa qarşı» Qanun, ƏMH Təminatı Mərkəzinin yaradılması, rəqəmli ƏMH idarəedilməsinin və Smart-sistem treninqləri Xidmətinin formalaşdırılması, Müəlliflik və digər ƏMH Uzunmüddətli Milli Strategiyanın hazırlanması, Aİ ilə TVİNNİNQ layihəsi, Azərbaycan təcrübəsinin beynəlxalq səviyyədə yayılması (ÜƏMT, 2010)).

## 3. Müəlliflik hüququ və digər oxşar ƏM hüquqlarının Milli qanunvericilik bazası

**Hüquqların bilavasitə qorunması xətti**

- «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanun (1996)
- «İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında» Qanun (2002)
- «Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Qanun (2003)
- «Məlumat toplularının hüquqi qorunması haqqında» Qanun (2004)

**Hüquqların təminatı xətti**

- «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun (2012)

**Hüquqların dolayısı və digər qorunma xətti**

- «Haqsız rəqabət haqqında» Qanun
- «Kommersiya sirri haqqında» Qanun
- «Sahibkarlıq haqqında» Qanun
- «Mədəniyyət haqqında» Qanun
- «Teatr və teatr fəaliyyəti haqqında» Qanun
- «Kinematoqrafiya haqqında» Qanun
- «Televiziya və radio yayımı haqqında» Qanun
- «KİV haqqında» Qanun
- «Nəşriyyat işi haqqında» Qanun
- «Reklam haqqında» Qanun
- «Memarlıq fəaliyyəti haqqında» Qanun
- «Elektron ticarət haqqında» Qanun
- «Elektron imza və elektron sənədləşmə haqqında» Qanun

## 4. Beynəlxalq müqavilələr

**ÜƏMT**

- Bern Konvensiyası
- Cenevrə Konvensiyası
- Roma Konvensiyası
- İnternet-Konvensiyalar

**YUNESKO**

- Müəlliflik hüququ Ümumdünya Konvensiyası
- Qeyri-maddi mədəni irsin qorunması Konvensiyası

**MDB**

- «Müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında» Saziş
- 5 Hökumətlərarası Saziş




## 5. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi

Müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrinə), inteqral sxem topologiyalarına və məlumat toplularına ƏM hüquqları sahəsində dövlət siyasətini həyata keçirən, normativ hüquqi tənzimləməni, ƏM sahəsinin inkişafını təmin edən, bu sahədə fəaliyyəti əlaqələndirən mərkəzi icra hakimiyyəti orqanıdır [«Agentlik haqqında Əsasnamə» və «Strukturu» Azərbaycan Respublikası Prezidentinin 30.08.2005 tarixli Fərmanı və 11.11.2008, 31.08.2009, 30.10.2009 и 21.12.2009, 15.02.2011, 07.06.2011, 07.02.2012, 15.03.2013 tarixlərdəki əlavə və dəyişiklikləri ilə təsdiq edilmişdir].





## Agentliyin başlıca məqsədi

ƏM potensialını sosial-iqtisadi və mədəni inkişafda, ƏM mədəniyyətinin formalaşmasında dövlət siyasətini həyata keçirmək.

**Vəzifə 1. Dövlət siyasətinin həyata keçirilməsi.**

- ƏM üzrə Milli Strategiyanın hazırlanması;
- ƏM üzrə Dövlət Proqramlarının və sistemli proqnozların hazırlanması;
- Mövcud qanunvericiliyə nəzarət və sahənin koordinasiyası;
- Qanun layihələrinin və normativ-hüquqi aktların layihəsinin hazırlanması;
- Sahədəki tarif siyasəti (qonorarlar və s.);
- Beynəlxalq əməkdaşlıqda iştirak;
- Digər. **Cəmi: 16 funksiya.**

## Milli Strategiyadan fraqment




## Dövlət Proqramı 2013-2016

- ✓ Milli Strategiyanın 30 məqsədinə uyğun 14 funksional istiqamət;
- ✓ 30 aqreqatlı funksiya və 90 adlı tədbirlər.

**Vəzifə 2.** ƏM nəticələrinin həvəsləndirilməsi, yaradıcılıq və innovasiyalara investisiya qoyuluşu və yaradıcılıq və innovasiya məhsul və xidmətlərin yayılması və zənginləşdirilməsi üçün əlverişli şəraitin yaradılması.

- Əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatlarının akkreditasiyası, metodoloji yardım, fəaliyyət seqmentlərinin formalaşdırılması, onlara nəzarət və mübahisələrin həlli.
- ƏM obyektlərinin könüllü qeydiyyatı, müvafiq Şəhadətnamələrin verilməsi.
- Milli rəqəmli və deponent sistemlərinin aparılması (hüquq sahibləri və obyektlər üzrə).

«Azərbaycan Müəllifləri» Birliyi (musiqili əsərlər)
«Kinorejissorlar Gildiyası» (audiovizual əsərlər)
«Müəllif» Birliyi (əlaqəli hüquqlar)

**Əsərlərin qeydiyyatı**

**(on-line qeydiyyat daxil olmaqla 1996-2012)**




**Qeyd:** *Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (1996-2012-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı - 8555)*

**(on-line qeydiyyat daxil olmaqla 2012)**




**Qeyd:** *Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (2012-ci ildə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı -729)*



## Qeyri-maddi mədəni irsin qorunması

| Mədəni ənənələr | |
|---|---|
| Ənənəvi mədəni nümunələr (folklor) (ƏMN) | Ənənəvi biliklər (ƏB) |




- ❖ **«Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında» Qanun**
- ❖ **Ənənəvi biliklərin hüquqi qorunması**




**"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanuna əlavə və dəyişikliklər.**

**27-ci maddə "İctimai varidat".**

**Xüsusi Hökumət Qərarı.**

**Əl işi olan xalçaların qorunması.**

- ❑ **Erməni plagiatçılığa qarşı mübarizə**

## “Folklor” rəqəmsal multimedia kitabxanası







## Rəqəmli verilənlər bazası



# Elektron xidmətlər




❖ Folklor nümunələrinin istifadəsi zamanı pozuntularla bağlı dövlətin maraqlarını məhkəmələrdə təmsil etmək, müəllif hüquqlarının pozuntularına aid məhkəmələrdə iştirak, ekspert rəylərin hazırlanması, 3-cü tərəf kimi çıxış etmə və hüquq sahiblərinə yardımın göstərilməsi.

## Enforcement statistikası (2009-2012)



- «960» qaynar xəttinin fəaliyyəti, hüquq sahiblərinə məsləhətlər və onların iddialarının hazırlanması, hüquq sahibləri ilə tədbirlər, radio, TV debatları, nəşrlər, simpozium, seminar və dəyirmi masalar.
- Məhkəmə işlərinin statistikasının aparılması və s.

**ƏM mədəniyyətinin formalaşdırılması (2009-2012)**




- Hüquqların pozulması, piratçılığın səviyyəsini müəyyən edən monitorinq və müvafiq tədbirlər.
- Folklor nümunələrinin (ƏMH) qanunvericiliyə uyğun istifadəsi monitorinqi.

## Azərbaycanda piratçılığın səviyyəsinin müqayisəli göstəriciləri

Müvafiq sektorlarda 9-28% aşağı düşmüşdür




**Cəmi: 30 funksiya**

**Vəzifə 3.** ƏM-in «biliklərə əsaslanan iqtisadiyyat»ının qüdrətli alətə çevrilməsi.

- Müəllif hüququna əsaslanan (kreativ) industriyanın ÜDM-dəki payının qiymətləndirilməsi.

## Mövcud vəziyyət: Müəlliflik hüququna əsaslanan sənayenin (kreativ iqtisadiyyat) ölkə ÜDM-dəki payı






## Kreativ iqtisadiyyatın strukturu

**Mənbə**: *Agentlik və ÜƏMT*

### ÜƏMT-nin 32 ölkə üzrə orta göstəriciləri




### Azərbaycan üzrə (2011)



## Kreativ iqtisadiyyatda əsas müəlliflik hüququnun sahələr üzrə paylanması






## 32 ölkə üzrə məşğulluq payının orta göstəricilər (qruplar arasında paylanma)

**Azərbaycan üzrə (2011)**




- ✓ Solou modeli üzrə innovativlik indeksinin dəyərləndirilməsi.
- ✓ ƏM aid investisiyalarda payın müəyyən edilməsi.
- ✓ ƏM aktivlərinin mikroiqtisadi səviyyədə araşdırılması.

## Solou modelində innovativlik (kreativlik) indeksi

$Y = A \cdot K^{\alpha} \cdot L^{\beta} \rightarrow \Delta Y/\ Y = \Delta A/A + \alpha\Delta K/K + \beta\Delta L/L$ (kapital, əmək, biliklər)

A – innovasiya hesabına artım, K – kapital, L – əmək, $\alpha = \beta = 0{,}5$.

**Cəmi: 7 funksiya**



Davamlı iqtisadi inkişafın 7 ili ərzində innovasiyalar hesabına ölkənin ÜDM-nin artımı 13% artmışdır.

**Vəzifə 4. İnformasiya cəmiyyətinin formalaşmasında ƏM potensialının istifadəsi.**




İnternetin istifadəsi: 60%
Mobil telefonlar: 65%
Servis-provayderlərin sayı: > 30

- ❖ Normativ tənzimləmə və IT, E.com. inkişafınının tələbindən irəli gələn hüquqların qorunma və sərəncamçılığına aid mexanizmlərin formalaşdırılması.
- ❖ Rəqəmli hüquqların «.az» domeni istifadəsi ilə bağlı monitorinqlər.
- ❖ Rəqəmli hüquqların idarə edilməsinə aid DRM metodikalarının və sistemlərinin hazırlanması.

**Cəmi: 6 funksiya.**

**«Elektron ticarət haqqında» Qanun**: internet-provayderin və internet resursun sahibinin məsuliyyəti haqqında.

**«ƏMH təminatı və piratçılığa qarşı» Qanun**: rəqəmli hüquqların istifadəsi, kollektiv idarəetmə təşkilatlarının fəaliyyətinə nəzarət və pozulma hallarında tədbirlərin görülməsi səlahiyyətlərini Agentliyə verir.

**<u>Vəzifə 5.</u> Kadr peşəkarlığının artırılması.**




## 6. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası və ƏM

6.1. "Müasir çağırışlar" bölməsi: "yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyətinin yüksələcəyi".

- ❑ Biliklərə əsaslanan iqtisadiyyat və əqli mülkiyyət




**Dünya iqtisadiyyatı:**
**1** – Müəlliflik hüququna əsaslanan (kreativ iqtisadiyyat)
**2** – Sənaye mülkiyyətinə əsaslanan
Cəmi: 14,4% = 4 trl. ABŞ $
2008-ci ildə Aİ – 860 mlrd. Avro (1,186 ABŞ $)




**Mənbə:** *UNCTAD, UNDP, UNESCO, ÜƏMT və TM "Kreativ iqtisadiyyat" Hesabatı (2010)*

**Dünya iqtisadiyyatı:**

- ✓ İqtisadi artım tempinin 80-90% yeni biliklər əsasında;
- ✓ Biliklərlə bağlı sahələr ÜDM 45%;
- ✓ ABŞ: IP sahələr: 30% iş yeri və 60% ixrac (eksport);
- ✓ Avropa Komissiyasının 2012-ci il Memorandumu: Yaxın 5 ildə rəqəmli iqtisadiyyatın inkişafı 7 dəfə digər sahələri üstələyəcək.

**6.2. "Strateji baxış və prioritetlər" bölməsi:**
"Mədəni irsin qorunub saxlanması, səmərəli idarə olunması, yeni yaradıcılıq nəticələrin qorunması və zənginləşdirilməsi... Konsepsiya çərçivəsində əsas prioritet kimi qəbul edilmiş və... müvafiq siyasət tədbirlərin həyata keçiriləcəyi nəzərdə tutulmuşdur".

**6.3. "Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru" bölməsinin "iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" 4.2 yarımbölməsindən:**
"Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir".

**Tədbirlər:**

- ➢ ÜDM-də kreativ sənayenin payının müəyyənləşdirilməsi üzrə 2013-2015-ci illər üçün Dövlət Proqramının hazırlanması;
- ➢ "Biliklərə əsaslanan iqtisadiyyatda Əqli mülkiyyətin rolu" layihəsinin həyata keçirilməsi və broşürün nəşri.

**ÜƏMT: "Müəlliflik hüququ + kreativlik = iş yerləri və iqtisadi inkişaf" (yanvar 2012-ci il)**

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı




**6.4. "Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru" bölməsinin "elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi" 4.3 yarımbölməsindən:**

"İqtisadi məqsəd və resurslar, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasındakı əlaqələrin müəyyənləşdirilməsi uzunmüddətli dövr üçün əqli mülkiyyətə dair Milli Strategiyada və ondan irəli gələn Dövlət Proqramında əksini tapan innovasiya potensialının inkişafına kömək edəcəkdir".

**Tədbirlər:**

- Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birlikdə ƏM üzrə uzunmüddətli Milli Strategiyanın hazırlanması;
- Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqlarının inkişafı üzrə əvvəllər hazırlanmış 2013-2015-ci illər üçün Dövlət Proqramının layihəsinin yeniləşdirilməsi (*Dövlət Proqramının layihəsinin yekun variantı 13 iyun 2011-ci il tarixində Nazirlər Kabinetinə təqdim edilmişdir*).

**6.5. "İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi" bölməsindən:**

"İKT və ƏM-in qarşılıqlı təsiri və ƏMH ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, on-line lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi yaradılacaqdır".

## Rəqəmləşən dünya

- 2010-cu il: rəqəmli informasiyanın həcmi 1,2 Zetta byt (1 Zetta byt = $2^{70}$ = $10^{21}$ byt);
- 2011-ci il: Yalnız Creative Commons (sərbəst istifadə) vasitəsilə yayılan əsərlərin sayı 580 mln.;
- 2010-cu il: Avropa rəqəmli kitabxanası (Europeana) – 135 mln. sənəd (əsər);
- 2010-cu il: Google on-line kitab mağazası təqribən 130 mln. rəqəmli kitab (Google Editions);
- 2010-cu il: On-line kitab satışında 200% artım (ümumi kitab satışının təqribən 5%), CD və DVD ümumi satışı 7% azalsa da rəqəmli musiqinin satışı hesabına ümumi satış 13% artıb;

- You Tube portalına hər dəqiqə 10 saatlıq video yayımlar daxil olunması;
- ƏM-ə aid e-com. hər il 40-50% artır, hər il buna 1 mln. qədər insan qatılır və hər e-mağaza ayda 1,2 mln. əməliyyat aparır;
- Ümumiyyətlə e-com. 19% hər il artır.




**Əsas problem**

- Rəqəmli (İnternetdə) hüquqların idarə edilməsi və təminatı ilə bağlı balans axtarışı: hüquq sahiblərinin həvəsləndirilməsi yaxud istifadəçilərin informasiya əldə edilməsinin sərbəstliyi;
- Azərbaycanın axtarış modelləri.

**6.6. "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" bölməsinin "Müasir təhsil sisteminin formalaşdırılması" 7.2 yarımbölməsindən:**

“Ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resursları yaradılacaq, bu resurslar, müəllif-hüquq lisenziyaları ilə təmin olunmaqla, təhsil prosesinə inteqrasiya ediləcək və açıq istifadəyə veriləcəkdir”.

**Tədbirlər:**

- Elektron təhsil texnologiyalarının tətbiqinin əhəmiyyətindən irəli gələn ödənişsiz əsaslarla fəaliyyət göstərən açıq təhsil resurslarının yaradılması və onun müəllif-hüquq lisenziyaları ilə təmin olunması layihəsinin hazırlanması və UNESCO-nun dəstəyi ilə Təhsil Nazirliyi ilə birgə beynəlxalq seminarın keçirilməsi.

**Biliklər və biliklərə əsaslanan göstəricilərin inkişafı:**

- Elmi-texniki dairənin inkişafı (innovasiya sistemlərinin mövcudluğu, biliklərin yaranması) və tələbata uyğunluğu;
- Təlim və təhsilin inkişafı (biliklərin əldə edilməsi və keyfiyyətli istifadəsi potensialı);
- ƏM sahəsinin formalaşdırılması (ƏM çevrilmiş biliklərin qorunması və təminatı, qanunvericilik bazası);
- İdarəetmə sistemlərinin mükəmməlləşdirilməsi (bilik və informasiyanın kommunikasiyası, yayılması və emal edilməsi).

**Creative Commons (CC) və Açıq Təhsil Resursları**

- ✓ CC atribusiyaları (icazələri): obyektin yaradıcısının müəlliflik hüququ saxlanmaqla, əmlak hüquqlarından imtina etməsi (BY);
- ✓ BY-NC: qeyri-kommersiyalı atribusiya;
- ✓ BY-SA: lisenziya şərtlərinin saxlanması ilə;
- ✓ BY-ND: yenidən işlənməyə qadağa qoymaqla;

- ✓ BY-NC-SA: qeyri-kommersiyalı, lisenziya şərtləri saxlanmaqla;
- ✓ BY-NC-ND: qeyri-kommersiyalı, yenidən işlənməyə qadağa qoymaqla.

**CC-nin yayılması**

- ❖ 54 ölkədə və 100-dən artıq ölkələrdə yerli hüquqi şəraitə uyğun CC-nin işləməsi;
- ❖ Çində "Yüksək növ dövlət kursları" və mükafatlarla CCBY-NC-ND həvəsləndirilməsi;
- ❖ Azərbaycanda dərsliklərin sifarişi.

**6.7. "Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi" bölməsindən:**

"Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, ƏMH-nın pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir".

**Piratçılıq – beynəlxalq mənfi fenomendir**

- ✓ ÜƏMT və İnterpol (VI Qlobal Konqress) 2009-cu ildə piratçılığın illik ziyanı > 1 mlrd.$, pirat və kontrafakt malları ticarət dövriyyəsi 200 mlrd.$;
- ✓ Beynəlxalq Ticarət Palatasının proqnoz məlumatı: 2015-ci ildə piratçılığın və kontrafaksiyanın iqtisadi ziyanı > 1,7 trln.$ (2011-ci il – 850 mln.$) 2,5 mln. iş yerinin azalmasına səbəb olacaq, o cümlədən Aİ-da 1,2 mln. insan;
- ✓ Aİ-da maddi itkilər həmin müddət üçün 240 mlrd. Avro;
- ✓ Aİ 2008-ci ildə: piratçılıqla bağlı itkilər 10 mlrd. Avro, işsiz qalanların sayı – 186 min;
- ✓ ACTA (Anti-Counterfeiting Trade Agreement): AvroParlament, iyul 2012-ci il;

- ✓ SOPA, PİPA (İnternetdə piratçılığa qarşı): ABŞ, 2012-ci il;
- ✓ ƏMH Təminatı Mərkəzi: Azərbaycan (nəzarət markaları rəqəmli qeydiyyat bazası və distant yoxlama sistemi).

### Sosial şəbəkələr və piratçılıq

- ❑ 2012-ci il iyul tarixinə qədər 23 ölkə tərəfindən Tvitter-də hüquqların pozulması ilə bağlı 3378 müraciət daxil olmuş, 38% yerinə yetirilmiş (5275 tvit və 599 media fayl ləğv edilmiş);
- ❑ 2012-ci il iyul tarixinə qədər 6 ay ərzində Google müxtəlif ölkələrin hökumətlərindən yayımı dayandırmaq üçün > 1000 sifariş qəbul edib və > 50% yerinə yetirilib, 461 məhkəmə qərarları əsasında (6989 kontent elementi) 68% yerinə yetirilib.

**Mənbə**: *Qlobal Transparensy Report*

Piratçılığın və kontrafaksiyanın həcmi (mlrd.$)



**8. “Mədəni irsin qorunması və səmərəli idarə edilməsi” bölməsindən:**

“Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsəmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin UNESCO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçiriləcək, həmçinin milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi və inkişafında iştirak təmin ediləcəkdir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir”.

**Tədbirlər:**

- “Azərbaycana məxsus qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və Dövlət Reyestrinin aparılması Qaydalarının təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin qərarının qəbul edilməsi (*qərar layihəsi aidiyyəti dövlət orqanlarından vizalar alınaraq 2012-ci ilin IV rübündə Nazirlər Kabinetinə təqdim edilmişdir*).
- Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə kitabxanalarda və arxivlərdə qorunub saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşdirilmiş şəkildə rəqəmləşdirilməsi,

mühafizəsi, hüquqi qorunması və beynəlxalq mübadiləsinin təşkili.

